

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 78 (23.240)

27 aprel 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Aprelin 26-da Pekində 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Forumda iştirak edir.

Forumun ikinci hissəsi dövlət başçıları səviyyəsində “Daha parlaq birgə gələcəyin qurulması” mövzusuna həsr olunub.

Dövlətimizin başçısı yüksək səviyyəli bu görüşdə çıxış edib.

* * *

Aprelin 26-da Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Görüşdə siyasi, iqtisadi, energetika, infrastruktur, investisiya, kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, sənaye, əczaçılıq, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf perspektivləri müzakirə olunub. Hökumətlərarası komissiyanın uğurla fəaliyyət göstərdiyi bildirilib və iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə edilib.

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibətilə tədbirlər keçirilib

*Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında keçirilən tədbirdə iştirakçılar əvvəlcə poliklinikanın foyesində akademikin büstü önünə gül dəstələri qoyub və görkəmli alimin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxıblar.*

Poliklinikanın iclas zalında keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası səhiyyə naziri Niyazi Novruzov açaraq mənalı ömrü, keçdiyi şərəfli həyat yolu nəsillərə mənəviyyat məktəbi, xalqa təmənnasız xidmət nümunəsi olan görkəmli akademik Zərifə Əliyevanın çoxşaxəli həyat yolundan, xalqımız qarşısında göstərdiyi böyük xidmətlərdən danışıb.

Bildirilib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alimin adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva yüksək mədəniyyəti, zərif qəlbi, elmə sədaqəti, insanlara münasibəti ilə xalqımızın qəlbində həmişə yaşayır, parlaq xatirəsi daim böyük ehtiramla anılır. Tibb elmində neçə-neçə ideyanın əməli işdə gerçəkləşdirilməsi onu yenilikçi alim kimi tanıtmışdır. Geniş dünyagörüşü, dərin tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə hamının rəğbətini qazanmış bu fədakar alimin həyat və yaradıcılığı hər bir Azərbaycan vətəndaşı, bütün elm adamları və tibb işçiləri üçün həyat və mənəviyyat, kamillik, müdriklik məktəbidir. Zərifə xanım Əliyeva yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid “Zərifə xanım Əliyeva fədakar ana, vəfalı həyat yoldaşı və görkəmli elm xadimi kimi” mövzusundakı çıxışında bildirib ki, Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında və yaşadılmasında müstəsna xidmətlər göstərib. Bütün sahələrdə öz imzaları ilə böyük nüfuz sahibi olan qadınlarımızın adları çoxəsrlik tariximizin şanlı səhifələrinə əbədi olaraq qızıl hərflərlə yazılıb. Onlar hər zaman xüsusi ehtirama, diqqətə layiq olublar. Zaman keçdikcə dünyada olduğu kimi,



Azərbaycan cəmiyyətində də qadının rolu daha da artıb, o, ictimai həyatın fəal iştirakçısına çevrilib, hətta digər ölkələrin qadınlarına örnək göstərilib.

Ülvilik, zəriflik və gözəllik rəmzi olan Zərifə xanım Əliyeva da məhz bütün dünyaya örnək olan belə qadınlarımızdan, analarımızdandır.

“Naxçıvan dünya tarixinə qadınlıq və analıq nümunəsi sayılan, tarixdə fəaliyyəti ilə ad qazanan çox sayda qadın bəxş etmişdir. Lakin onlardan dövlət başçısının həyat yoldaşı və anası statusunu daşıyan, öz möminliyi və ağlı, elmi, dünyagörüşü, siyasi uzaqgörənliyi ilə bütün dünyada tanınan və tarixdə şərəfinə abidə ucaldılan iki qadın – Möminə xatın və Zərifə xanım Əliyevanın yeri əvəzolunmazdır”, – deyən Surə Seyid qeyd edib ki, Zərifə xanım Əliyeva elmi nailiyyətləri ilə Azərbaycan tibb elminin, eyni zamanda ictimai fəaliyyəti ilə ictimai fikir tariximizin inkişafında tanınmış şəxsiyyətlərdəndir. Akademik Zərifə Əliyeva keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü, “Əməkdar elm xadimi” fəxri adına və ən yüksək elmi adlara layiq görülüb.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, ulu öndərimizə mənəvi dayaq, arxa olub.

Dahi öndər siyasi fəaliyyətinin ən çətin dövrlərində ona öz sevgisi ilə güc verən xanımının varlığını yüksək qiymətləndirərək deyirdi: ***“Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib”.***

Qeyd olunub ki, Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezidentimiz cənab İlham Əliyevin anasıdır.

Dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim Zərifə xanım Əliyevanın həyatı, elmi və ictimai fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi bu böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır.

Diqqətə çatdırılıb ki, dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanı nəinki alim, eyni zamanda bir qadın və ana kimi yüksək qiymətləndirərək haqqında tarixi fikirlər söyləyiblər. Akademik N.Puçkovskaya “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi”, – deyərək, alimin böyük insani keyfiyyətlərə malik olduğunu vurğulayırdı. Professor A.Brovkina onu “nəciblik və mənəvi paklıq timsalı”, professor V.V.Şmelyeva “əvəzolunmaz insan haqqında povest” adlandırırdı.

Vurğulanıb ki, Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Onun zəngin elmi irsi, tədqiqatları, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Xalqımızın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alimin və istedadlı həkimin şəxsiyyəti bu gün də – ölkəmizin müstəqillik şəraitində yaşadığı dövrdə də hər bir alimin və Hippokrat andını içmiş hər bir həkimin cəmiyyətdə oynamalı olduğu rola parlaq nümunədir”.***

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Akademik Zərifə xanım Əliyeva əsl Azərbaycan qadını kimi” mövzusunda çıxışında bildirib ki, Zərifə xanım görkəmli oftalmoloq-alim, mənalı və zəngin həyat yolu keçən ziyalı bir qadın olmuşdur. Səmimilik, alicənablıq, birinci növbədə, özünə, daha sonra ətrafdakılara tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına, ailəsinə sönməz məhəbbət böyük alimə xas cəhətlər idi.

Poliklinikanın baş həkimi Səadət Əlizadə “Zərifə xanım Əliyevanın xeyirxahlıq, ağıl və qüdrət məktəbi” mövzusundakı çıxışında görkəmli oftalmoloq-alimin, bənzərsiz ziyalı, qayğıkeş insan Zərifə Əliyevanın son dərəcə zəngin, mənalı həyat və fəaliyyətinin müxtəlif dövrlərindən bəhs edib.

Tədbir iştirakçıları akademikin mənalı ömür yolunu əks etdirən xronikaya baxıblar.

Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

Sonra Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının bir qrup həkimi Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlara baş çəkib.

Tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında tamaşalardan səhnəciklər göstərilib. Uşaqlar bayram personajları ilə birlikdə rəqs ediblər, onlar üçün çay və şirniyyat süfrəsi açılıb.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Aprelin 26-da Kəngərli rayonunun Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.*



Əvvəlcə görkəmli akademikin məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyulub, adını daşıyan muzeyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə açan Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova dünya şöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı fəaliyyətindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıb. Bildirib ki, insanlara nur bəxş edən, qayğıkeşliyi, nikbinliyi ilə özünə əbədi yer qazanan Zərifə xanım tibb elminin ən uca pillələrinə yüksəlməklə yanaşı, nümunəvi bir həyat yolu keçib. Onun həyat ideyaları və şəxsiyyəti bu gün də müasir Azərbaycan üçün əsl nümunədir.

Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı çıxışında görkəmli alimin keçdiyi həyat yoluna nəzər salıb, onun yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasında və göz xəstəliklərinin müalicəsində göstərdiyi misilsiz xidmətlərdən bəhs edib.

Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin direktoru Ehtimad Məmmədov alimin həyat və fəaliyyəti, yüksək mənəvi keyfiyyətləri barədə məlumat verib.

Sonda məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri bədii qiraət ediblər, akademikin həyat və fəaliyyəti ilə bağlı filmə baxıblar.

**Babək İSMAYILOV**

## Görkəmli akademikin anadan olmasının 96 illiyinə həsr edilmiş tədbirlər keçirilib



*Naxçıvan Dövlət Universitetinin Klinik Xəstəxanasının akt zalında Azərbaycanın görkəmli elm xadimi, tanınmış oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96 illiyinə həsr edilmiş elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tibb elminin inkişafına mühüm töhfələr verən, oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə nəinki keçmiş SSRİ-də, eləcə də dünyada böyük şöhrət qazanan akademik Zərifə xanım Əliyevanın şərəfli və zəngin həyat yolu barədə danışıb.

Qeyd edilib ki, unudulmaz alim, təbib və müəllimin elmi-pedaqoji və praktik fəaliyyəti Azərbaycanda oftalmologiya elminin inkişafına, həkimlərin yeni nəslinin yetişməsinə kömək göstərib, ölkədə bir sıra göz xəstəliklərinin qarşısının alınmasında mühüm rol oynayıb.

Ümumi təbabət və gigiyena kafedrasının baş müəllimi Güllü Səfərova istedadlı alim, qayğıkeş ana olan Zərifə Əliyevanın geniş elmi fəaliyyəti haqda danışaraq bildirib ki, akademik 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olub.

Ən geniş yayılmış göz xəstəlikləri sırasında olan katarakta barədə danışan oftalmologiya ixtisası üzrə müəllim Rəhmiyyə Əliyeva bu xəstəliyin göz büllurunun şəffaflığının pozulması nəticəsində meydana gəldiyini diqqətə çatdırıb.

Oftalmologiya ixtisası üzrə I kurs həkim-rezident Aynur Əliyeva Günəşin gözlərə zərərli təsiri və müdafiə yollarından danışıb.

Sonda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib.

**Səadət ƏLİYEVA**

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru Elbrus İsayev açıb. Bildirib ki, görkəmli alim Zərifə Əliyevanın yüksək mənəvi zənginliyə malik irsi bu gün hər birimiz üçün əhəmiyyətlidir. Məhz Zərifə xanımın böyük zəhməti sayəsində Azərbaycanda oftalmologiya sahəsində mühüm elmi nailiyyətlər qazanılıb.

Tədbirdə institutun Ümumi fənlər kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundov "Akademik Zərifə xanım Əliyeva: gənc nəsillərə nümunə" mövzusunda çıxış edərək bildirib ki, Zərifə xanım Əliyeva 96 il bundan əvvəl görkəmli dövlət xadimi, Azərbaycan səhiyyəsinin qurucusu və təşkilatçısı olan Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Uşaq yaşlarından həkimlik sənətinə hədsiz maraq göstərən Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə oranı müvəffəqiyyətlə bitirərək Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib.

Vurğulanıb ki, elmi tədqiqatlara olan hədsiz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarıb. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil alıb və elmi tədqiqatla məşğul olub. Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparıb. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənib və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlayıb. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasındadır.

Sonda Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

**Pərviz HACILI**

* * *



*Naxçıvan Tibb Kollecində Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.*

Konfransda "Akademik Zərifə xanım Əliyevanın həyat və yaradıcılığı" mövzusunda məruzə ilə çıxış edən Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva deyib ki, Zərifə xanımın yaşadığı mənalı həyat yolu hər bir Azərbaycan vətəndaşı, bütün alim və həkimlərimiz üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Akademikin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Yazgül Rzayeva diqqətə çatdırıb ki, Zərifə xanım Əliyevanın traxoma xəstəliyinin müalicəsi istiqamətində gördüyü işlər milyonlarla insanı bu xəstəlikdən xilas edib. Kliniki və nəzəri oftalmologiyanın bir sıra aktual məsələlərinə həsr olunan yeni və uğurlu tədqiqatların əsasını qoyan Zərifə xanım Əliyeva Azərbaycanda kimya sənayesinin genişlənməsi və inkişafı ilə bağlı görmə üzvünə kimyəvi maddələrin təsiretmə mexanizmlərinin praktik olaraq aşkar edilməsi kimi ciddi işlərin də təməlini qoyub. 1968-ci ildən isə Zərifə xanım peşə oftalmologiyası məsələləri ilə sistemli şəkildə məşğul olmağa başlayıb.

Vurğulanıb ki, genişmiqyaslı klinik müşahidələrin və eksperimental tədqiqatların yekunu olaraq onun indiyədək əhəmiyyətini itirməyən əsərləri və monoqrafiyaları yaranıb.

Yazgül Rzayeva qeyd edib ki, bütün həyatını, elmi-pedaqoji fəaliyyətini oftalmologiyanın çoxşaxəli problemlərinə həsr edən Zərifə xanımın gənc həkimlərin və oftalmoloq-alimlərin yetişməsində də xüsusi xidmətləri olub.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Tibb Kolleci ərazi ilk təşkilatının sədri Leyla Vəliyevanın "Böyük ana haqqında düşüncələr", Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının oftalmoloqu Kəmalə Əliyevanın "Akademik Zərifə xanım Əliyevanın elmi və ictimai fəaliyyəti", Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin V kurs tələbəsi Bənövşə Qasımovanın "Akademik Zərifə xanım Əliyevanın pedaqoji fəaliyyəti" mövzularında məruzələri dinlənilib.

**Tural AĞAYEV**

* * *

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96 illiyi ilə əlaqədar Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası Kəngərli Rayon Mərkəzi Xəstəxanasında humanitar aksiya keçirib.

Məqsəd aztəminatlı ailələrin uşaqları üzərində cərrahi əməliyyatların aparılması olub.

Səyyar aksiyadan əvvəl yerli tibb işçiləri tərəfindən cərrahi əməliyyata ehtiyacı olan uşaqlar müayinədən keçirilib və onlar xəstəxanaya dəvət ediliblər.

Cərrahi əməliyyatlar Mərkəzi Uşaq Xəstəxanası Cərrahiyyə şöbəsinin müdiri Şəhla İmanova, həkim-cərrah İldırım İbrahimov, həkim-anestezioloq Qərənfil Bədəlova tərəfindən həyata keçirilib. Briqadada, həmçinin 2 əməliyyat, 2 anesteziologiya üzrə tibb bacısı və sanitarlar da təmsil olunublar. Yerli həkim və orta tibb işçiləri briqadanın səmərəli fəaliyyəti üçün lazımi şərait yaradıblar. Aksiyanın ilk günü 19 uşaq üzərində fimoz əməliyyatı aparılıb. Onlar bir neçə saat həkim müşahidəsi altında saxlanıldıqdan sonra evə buraxılıblar.

Şahtaxtı kəndindən Yusif Quliyevin iki övladının cərrahi əməliyyatı keçirilib. O, övladlarını başqa yerlərə aparmadan yüksəkixtisaslı həkimlər tərəfindən əməliyyat olunduğuna görə minnətdarlığını bildirib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasında humanitar aksiya bu gün də davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İnnovasiyalar və onların idarə edilməsi mövzusunda təlim

Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinə hamiliyə verilmiş müvafiq ixtisaslarda təhsil alan tələbələrə "İnnovasiyalar və onların idarə edilməsi" mövzusunda təlim keçirilib. Tədbiri giriş sözü ilə universitetin rektoru Saleh Məhərrəmov açıb.



Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarında əksini tapan vəzifələrin icrası istiqamətində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Qeyd olunub ki, komitədə hamiliklə əlaqədar iş planları təsdiq edilib. Tələbələrlə görüşlər keçirilib, tədrisə köməklik məqsədilə onlara dərsliklər, dərs vəsaitləri, elektron dərsliklər, müxtəlifməzmunlu xəritə materialları hədiyyə olunub. Tələbələrin komitənin bazasında praktik məşğələlər keçmələri təmin edilib, geodeziya-ölçü avadanlıqlarından ilkin istifadə vərdişləri öyrədilib. Çöl şəraitində tələbələrin sınaq-geodeziya ölçmələrində iştirakı təmin olunub. Yay tətili müddətində 3 tələbə 3 aylıq əmək müqaviləsi bağlanılmaqla ödənişli işlərə cəlb edilib.

Komitənin sədri bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamı ilə "İdeyadan başlanğıca" devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin həyata keçirilməsi hamiliyə verilən təhsil müəssisələri və hami təşkilatlar qarşısında əsas vəzifə kimi müəyyənləşdirilib. Qarşıya qoyulmuş vəzifələrin icrasının təmin edilməsi, hamiliyə verilmiş ixtisaslar ilə işin təşkili, yeni layihələrin həyata keçirilməsi üçün komitədə ictimai əsaslarla fəaliyyət göstərən "Tədris-İnnovasiya Mərkəzi" yaradılıb. Mərkəz hamiliyə verilən ixtisaslarda nəzəri və təcrübi məşğələlərin keçirilməsini, layihələrin qəbulunu, ekspert qrupları yaratmaqla dəyərləndirilməsini və təqdimatlarının keçirilməsini təmin edəcək.

Tələbələrlə əlaqələrin intensivliyini təmin etmək, yeni ideyaların formalaşdırılması, startapların yaradılması məqsədilə hər həftənin şənbə günü komitədə "Startap günü" elan olunub.

Sonra komitə aparatının rəhbəri Nurlan Fətəliyev tərəfindən "İnnovasiyalar və onların idarə edilməsi" mövzusunda təlim keçirilib. Slayd vasitəsilə tələbələrə innovasiyalar, onların xüsusiyyətləri, təsnifatı, formalaşdırılma mərhələləri, innovasiya üçün ilkin şərtlər, startaplar haqqında ətraflı məlumat verilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Yeni layihə: *"Nəqliyyat könüllüləri"*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamında qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Dövlət Nəqliyyat Xidməti tərəfindən "İdeyadan başlanğıca" layihəsi çərçivəsində "Nəqliyyat könüllüləri" adlı tədbir keçirilib.

Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələrin iştirakı ilə təşkil olunan tədbiri xidmətin rəisi Əli Hüseynəliyev açaraq hamiliklə bağlı imzalanan sərəncamların əhəmiyyətindən və görüləcək işlərdən bəhs edib.

Bildirilib ki, 2019-cu il aprel ayının 15-də keçirilən müşavirədə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi ilə bağlı qarşıya mühüm vəzifələr qoyulub. Bu vəzifələrin icrasını təmin etmək məqsədilə Dövlət Nəqliyyat Xidməti tərəfindən müxtəlif səpkili tədbirlərin təşkili nəzərdə tutulub.

Qeyd olunub ki, "İdeyadan başlanğıca" layihəsi çərçivəsində "Nəqliyyat könüllüləri" adlı tədbirin keçirilməsində əsas məqsəd könüllülük fəaliyyətinin tərbiyəvi əhəmiyyətinin təşviqi, bu prosesə gənclərin qoşulmasının təmin edilməsi, avtonəqliyyat xidməti sahəsində könüllülərin yetişdirilməsi və gələcəkdə onların Dövlət Nəqliyyat Xidmətində və aid təşkilatlarda müvafiq işlə təmin olunmasından ibarətdir.

Vurğulanıb ki, "Nəqliyyat könüllüləri" adlı tədbir sürücülərin və ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin iştirakı ilə təşkil olunacaq. Bu tədbir vasitəsilə könüllülər ictimai nəqliyyat vasitələrinin sürücülərini daha məsuliyyətli və cəmiyyətə qarşı daha qayğıkeş olmağa, sərnişinləri isə yol hərəkətinin təhlükəsizliyi qaydalarına məsuliyyətlə yanaşmağa, sərnişin daşıyan avtobuslardan istifadə edərək avtobusdaxili qaydalara və səliqə-sahmana riayət etməyə çağıracaqlar. Bir ay ərzində davamlı olaraq iki mərhələ şəklində keçirilməsi nəzərdə tutulan tədbir birinci mərhələdə şəhərdaxili, ikinci mərhələdə isə şəhərlərarası sərnişindaşıma fəaliyyəti göstərən ictimai nəqliyyat vasitələrindən istifadə edən sərnişinlər arasında reallaşdırılacaq.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında son illərdə dövlətimiz tərəfindən gənclər sahəsində həyata keçirilən tədbirlərin, eləcə də hamiliklə bağlı imzalanan sərəncamların, xüsusilə də 2019-cu il 3 aprel tarixli Sərəncamın əhəmiyyəti barədə danışıb.

Sonra nəqliyyat könüllüləri Dövlət Nəqliyyat Xidməti əməkdaşlarının müşayiəti ilə qruplar şəklində təbliğat xarakterli məlumatları ictimai nəqliyyat vasitələrindən istifadə edən sürücü və sərnişinlərə çatdırıb, onlara bukletlər paylayıblar.

**Nail ƏSGƏROV**

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

# Əməyin mühafizəsi həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir

*Dünyada hər il istehsalatda baş verən bədbəxt hadisələr nəticəsində milyonlarla insan xəsarət alır. Bu da əməyin mühafizəsi məsələsini aktuallaşdırır. Cəmiyyətin diqqətini işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunmasına yönəltmək məqsədilə 2001-ci ildə Beynəlxalq Əmək Təşkilatının qərarı ilə aprelin 28-i “Ümumdünya Əməyin Mühafizəsi Günü” kimi təsis olunmuşdur.*

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş yerlərinin yaradılması sosial siyasətin əsas istiqaməti hesab olunur. Bu sahədə həyata keçirilən tədbirlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz ölkəmizə rəhbərliyi dövründə insanların sosial müdafiəsini, o cümlədən işçilərin hüquqlarının qorunmasını və əməyin mühafizəsini daim diqqət mərkəzində saxlamış, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar həyata keçirmiş, əmək münasibətləri və əməyin mühafizəsi sahəsində yeni normativ-hüquqi aktlar qəbul edilmişdir. ***“Azərbaycan dövlətinin ən qiymətli sərvəti onun insanlarıdır”***, – deyən ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit olunub. Həmçinin ölkənin bu Əsas Qanununda işçilərin əmək və istirahət hüquqlarının əsasları da əksini tapıb. Bununla yanaşı, əmək münasibətlərini tənzimləyən əsas qanunvericilik aktı 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsidir. Məcəllədə əmək münasibətlərində olan işçilərin və işəgötürənlərin hüquq və vəzifələri, qarşılıqlı məsuliyyətləri, habelə əməyin mühafizəsini tənzimləyən norma, qayda və prinsiplər öz əksini tapmışdır.

Muxtar respublikada da insanların həyatı, sağlamlığı və əmlakı üçün təhlükə yaradan problemlərin qarşısının vaxtında alınması, eləcə də əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Tikinti-quraşdırma işlərinin həcminin artması, yeni istehsal və xidmət sahələrinin yaradılması iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilər üçün təhlükəsiz əmək şəraitinin yaradılmasına və əməyin mühafizəsinə diqqəti artırmışdır.

2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər”, “Tikinti sektorunda əməyin təşkili və təhlükəsizlik qaydalarına riayət olunması”, 2012-ci ildə “Tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması” və 2014-cü ildə “Tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri” ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası işçi hüquqlarının təminatı, o cümlədən əməyin mühafizəsi standartlarının tətbiqi sahəsində müsbət göstəricilərin artmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən işçilərin əmək hüquqlarının qorunması, iş yerlərində təhlükəsiz iş şəraitinin yaradılması, əmək münasibətlərinin qanunvericiliyə uyğun olaraq təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. İstehsal və tikinti obyektlərində işəgötürənlər tərəfindən iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılmasına, işçilərin fərdi mühafizə vasitələri ilə təmin edilməsinə və iş yerlərində əməyin mühafizəsi qaydalarına əməl edilməsinə nəzarət ilə bağlı 2019-cu ilin ötən dövründə 26 obyektə baxış keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 11 işçi həmin vasitələrlə təmin olunmuşdur. Bununla yanaşı, əmək qanunvericiliyinin tətbiqinə dair maarifləndirici seminarlar davam etdirilmiş, 3 istehsal müəssisəsində və 2 tikinti sahəsində maarifləndirici seminarlar keçirilmiş, iş prosesində əməyin mühafizəsi qaydalarına riayət edilməsi, işin xarakterinə uyğun fərdi və kollektiv mühafizə vasitələrindən istifadə olunması, əməyin mühafizəsi üzrə işçilərin vəzifələri, həmçinin əməyin mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyət mövzularında məlumatlar verilmişdir.

Tikinti sahəsində işə başlamazdan əvvəl sanitar, yanğın, ekoloji təhlükəsizlik, həmçinin yaxınlıqdakı mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsi, təmir-tikinti aparılan yerdə xüsusi işarələrin qoyulması, yüksək təhlükə mənbəyi olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsi məsələləri də diqqət mərkəzindədir. Tikinti aparılan obyektdə müvəqqəti qurğuların qurulması, işçilərin soyunub-geyinməsi üçün çadır və köşklərin təşkil edilməsi, işçilərin nahar və istirahət etmələri üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlərin hazırlanması, işçilərin sağlamlığının qorunması məqsədilə təcili tibbi yardım çantaları ilə təmin edilməsi muxtar respublikada əməyin mühafizəsi və işçilərin sağlamlığının qorunmasına xüsusi diqqət və nəzarət yetirilməsinin daha bir ifadəsidir. Ötən dövrdə bu istiqamətdə nəzarət aparıldıqdan sonra müvafiq orqanın nümayəndələri ilə birlikdə 6 yeni obyektdə işlərin başlanılmasına razılıq verilərək rəsmiləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirilməsi üzrə nəzarət, habelə işəgötürənlərin bu istiqamətdə maarifləndirilməsi, həmçinin əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin tətbiqi diqqətdə saxlanılmış, nəzarət tədbirləri həyata keçirilmişdir. Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşları tərəfindən isə Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə görüş keçirilərək əmək qanunvericiliyi sahəsində maarifləndirmə aparılmışdır.

Muxtar respublikada işçilərin əmək hüquqlarının qorunmasına və əməyin mühafizəsi qaydalarına əməl edilməsinə davamlı nəzarətin və maarifləndirici tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, istehsalat qəzalarının sayı ötən illərlə müqayisədə xeyli azalmış, əmək qabiliyyətinin itirilməsi və ölümlə nəticələnən bədbəxt hadisələrin sayı minimuma endirilmiş, bir sıra peşə xəstəliklərinin qarşısı alınmışdır. Bu sahədə həyata keçirilən tədbirlər istehsal, emal və tikinti sahələrində əmək məhsuldarlığının artmasına və əməyin mühafizəsi mədəniyyətinin yüksəlməsinə səbəb olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar keçirilən tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açıb. Bildirib ki, bu gün ölkəmizdə davam etdirilən hüquqi-dünyəvi dövlət quruculuğu vətəndaşların hüquq və mənafelərinin ən yüksək səviyyədə təminatına xidmət edir. İnsanların hüquqlarının qorunması, əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təşkili dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Muxtar respublikamızda da işçilərin hüquqlarının qorunması və əməyinin mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

Qeyd olunub ki, istehsal və tikinti sektorunda əmək hüquqlarının qorunmasına və əməyin mühafizəsi qaydalarına əməl edilməsinə davamlı nəzarətin və maarifləndirici tədbirlərin həyata keçirilməsi nəticəsində muxtar respublikada istehsal qəzalarının sayı ötən illərlə müqayisədə xeyli azalıb, əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən bədbəxt hadisələrin sayı minimuma endirilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər istehsal, emal və tikinti sahələrində əmək məhsuldarlığının artmasına və hər bir işçinin əməyinin mühafizəsi mədəniyyətinin yüksəlməsinə səbəb olub.

Tədbirdə çıxış edənlər əməyin mühafizəsi sahəsində görülən işlərdən danışıblar.

**✍ Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən “Dövlət orqanlarında sənədlərlə işin aparılması qaydaları” mövzusunda maarifləndirici seminar keçirilib.*

## Maarifləndirici seminar



Seminarı komissiyanın sədri İsmayıl Qəribli giriş sözü ilə açaraq bildirib ki, kargüzarlıq dedikdə dövlət orqanlarında sənədlərlə işləmə prosesi, yəni sənədlərin hazırlanması, onların qəbulu, qeydiyyatı, icra üçün verilməsi, icrasına nəzarətin aparılması, sənədlərin saxlanması başa düşülür. Dövlət orqanlarının fəaliyyəti sənədləşmədə öz əksini tapır. Bu mənada, kargüzarlıq dövlət orqanlarının fəaliyyətlərinin güzgüsüdür. Kargüzarlıq sisteminin qurulması dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsinə və idarəetmə qərarlarının vaxtında qəbul edilməsinə səbəb olur. Bu baxımdan dövlət orqanlarında kargüzarlığın düzgün təşkil olunması mühüm əhəmiyyət kəsb edir.

İsmayıl Qəribli diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunan yeni orfoqrafiya normalarında yüksək dövlət vəzifələrinin, dövlət orqanlarının adlarının və mürəkkəb adların yazılışlarında dəyişikliklər nəzərdə tutulub.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev “Azərbaycan dilinin orfoqrafiya normaları” mövzusunda çıxış edərək qaydalarda edilmiş dəyişikliklərdən danışıb.

Komissiyanın əməkdaşı Türkan Gülməmmədli dövlət orqanlarında kargüzarlığın aparılması işi, habelə vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması qaydaları barədə məlumat verib.

Mövzularla bağlı slaydlar nümayiş etdirilib.

Tədbirin sonunda geniş müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Əlyazma və kitabların təqdimatı olub

*Aprelin 26-da Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qədim tarixə malik 22 əlyazma və kitab AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna hədiyyə olunub. Qeyd edək ki, qədim əlyazma və kitablar Babək rayon Nehrəm kənd sakini, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev tərəfindən təqdim edilib.*



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq deyib ki, qədim əlyazma və kitabların Əlyazmalar Fonduna hədiyyə edilməsi ənənəyə çevrilib. Bu, dördüncü təqdimatdır. Əlyazmalar Fondunda bu gün 400-dən çox qədim əlyazma və kitab var.

Akademik bildirib ki, əlyazma və kitablar əsrlərboyu İslam coğrafiyasının müxtəlif ölkələrinə yayılıb və əldən-ələ keçib. Bu gün təqdim olunan kitablar arasında dərslik, tanınmış insanların həyatı ilə bağlı kitablar, şairlərin əsərləri vardır. Bunlardan 2-si əlyazma, 20-si isə çap kitabıdır.

Tədbirdə mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, əlyazma kitabları insan zəkasının inciləridir, onların səsi əsrlərin dərinliklərindən gəlir. Hər bir əlyazma kitabı onu oxuyan alim və tədqiqatçının diqqətini cəlb edir. Natəvan Qədimova Mədəniyyət Nazirliyi adından kitabları təqdim edən Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevə təşəkkürünü bildirib.

Nazir çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov həmin kitablar haqqında ətraflı məlumat verərək deyib ki, təqdim olunan kitablar arasında Fərhad Ağazadənin “Ədəbiyyat məcmuəsi”,



M.Ə.Sabirin “Hophopnamə”si, Əbu Nəsr Fərahinin “Nisabüs-sibyan” kitabları, “İran şahlarının tarixi”, “Astronomiya və coğrafiya məlumatları” xüsusilə maraq doğurur.

Sonda hədiyyə edilən kitablara baxış olub.

**Əli RZAYEV**

## Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi yenilənib

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi saytı (www.miqrasiya.nakhchivan.az) tamamilə yenilənib, həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb. İnternet səhifəsi Azərbaycan, rus, ingilis dillərində fəaliyyət göstərir. Bu isə təqdim edilən məlumatların beynəlxalq səviyyədə yayılmasına şərait yaradır.*



Müasir dizaynda yaradılan 5 bölmə və 15 alt bölmədən ibarət saytda muxtar respublikanın rəsmi xəbərlərini, xidmətin tədbirləri və fəaliyyəti ilə bağlı məlumatları əldə etmək, eləcə də miqrasiya sahəsi ilə bağlı suallara cavab tapmaq olar.

Rəsmi internet saytının daha çox əcnəbilər tərəfindən istifadəsi nəzərə alınaraq *www.migration.nmr.az* adı ilə də fəaliyyəti təmin edilib. Xidmət saytın ikinci adını yaratmaqla, həm də yeniliyə imza atıb. Əcnəbilərin daha çox ingilis dilinə üstünlük verməsi və saytın ikinci versiyasının elə həmin dildə fəaliyyət göstərməsi istifadəçilərin işini daha da asanlaşdırır.

Yeni dəyişikliklərdən sonra sayt üzərindən əvvəlcədən elektron növbə almaqla Xidmətin Qeydiyyat şöbəsinə müraciət etmək mümkündür. İstifadəçilər istənilən yerdən ölkəyə gəliş və gedişlə bağlı məhdudiyyəti yoxlaya bilərlər.

Saytın daha bir yeniliyi isə audio bölməsində edilib. Belə ki, xidmətin radio vasitəsilə yayımlanan verilişlərinə qulaq asmağa imkan tapa bilməyən şəxslər bu bölmə vasitəsilə istənilən vaxt həmin mövzunu yenidən dinləmə fürsəti əldə edə bilərlər. Saytda yerləşdirilən fotolar muxtar respublikanın gəzməli və görməli yerlərinin təbliğinə də öz töhfəsini verəcək.

Sayt həm də xidmətin fəaliyyətində olan yeniliklərin, əcnəbilərlə bağlı keçirilən maarifləndirmə tədbirlərinin daha geniş və çevik işıqlandırılmasına şərait yaradır.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması halları və qanunsuz miqrasiya ilə bağlı maarifləndirmə xarakterli qısametrajlı videoçarx və slayd da hazırlanaraq saytda yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Qədim tarixə, füsunkar təbiətə, müasir infrastruktura malik olan muxtar respublikamızda sabahımızın qurucuları olan fəal və qabaqcıl gənclərimiz dövlət qayğısı ilə əhatə edilib. Yaradıcı gənclərin aşkar edilməsi, onların tanıdılması, istedad və qabiliyyətlərinin inkişafı üçün əlverişli mühit formalaşdırılıb. Gənclərə hərtərəfli şəraitin yaradılması, fəaliyyətlərinin qiymətləndirilməsi onlara ölkəmizin, eləcə də muxtar respublikanın tarixini, mədəni irsini və turizm potensialını təbliğ etmələri üçün stimul verir. Son günlərdə isə diyarımızın hər bir tərəfində gənclərdə xüsusi coşqunluq, sevinc dolu bir həyəcan, tələş hiss olunur. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində rəsm, əl işləri, foto, memarlıq, musiqi, rəqs və teatr yaradıcılığı sahələri üzrə ilk dəfə keçiriləcək "Yaradıcı gənclər" festivalına hamı böyük həvəslə hazırlaşır. Biz də belə gənclərimizin bir neçəsi ilə həmsöhbət olduq.*

*Gəncliyimiz, gələcəyimiz*

# Muxtar respublikanın yaradıcı gəncliyi üçün yeni üfüqlər açılır

***Pərvin Allahverdiyeva*** Şərur rayonunun Yengicə kəndində yaşayır. O, xalçanın ilmələrini, naxışların mənasını həvəslə izah edir, gördüyü



işdən zövq aldığını bildirərək deyir ki, bu sənətlə məşğul olmağa başlayanda başım ilmələrə elə qarışır ki, günün nə vaxt başa çatdığından xəbərim olmur. Bu iş artıq həyatımı mənalandıran sevimli bir sənətə çevrilib mənim üçün. Bu ilmələrin kölgəsində ömür adlı ağacın budağından yapışıb yaşayıram.

Müsahibim onu da xüsusilə vurğulayır ki, fiziki imkanları məhdud olan bəzi insanlar bir işin qulpundan yapışmağa, hansısa sənətlə məşğul olmağa həvəs göstərmirlər. Bəzən isə ailələri onları cəmiyyətdən təcrid edir, qapalı mühitdə böyüdürlər. Bu da belə gənclərdə həyata küskünlük yaradır. Amma mən heç vaxt belə düşünmürəm, hətta təhsildən də qalmamışam. 2008-ci ildə Naxçıvan Tibb Kollecinin Əczaçılıq işi ixtisasını və Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kursunu bitirmişəm. Qədim xalçaçılıq sənətinin sirlərini öyrənmək üçün isə Bakı şəhərində kurs keçmişəm. Bu günədək 10-a yaxın kiçik xalça toxumuşam.

Festivalda öz əl işləri ilə iştirak edəcəyini bildirən Pərvin deyir ki, Naxçıvanda fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, belə şəxslərə qayğı daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikamız bu sahədə də bir çox dünya ölkələrinə nümunə göstəriləcək səviyyədədir. Bütün bunlar isə bizi sənətimizə daha möhkəm tellərlə bağlayır.

***Məmməd Məmmədli*** Naxçıvan Musiqi Kollecinin Tar ixtisası üzrə dördüncü kurs tələbəsidir. Hələ kiçik yaşlarından öz istedadı ilə



həmyaşıdlarından seçilib. Sənət zirvəsinə aparan yolda ilk inamlı addımlarını atan bu istedadlı gənc bir sıra müsabiqələrdə, hazırda təhsil aldığı Musiqi Kollecində keçirilən tədbirlərdə uğurla iştirak edir. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması ilə əlaqədar Məmmədin 2018-ci il aprel ayının 13-də keçirilmiş solo konserti çox uğurlu olub. Gənc musiqiçimizin nailiyyətləri bununla bitmir. O, ötən il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üzrə keçirilən müsabiqədə birinci yeri qazanıb. Daha sonra "Testene-Art" III Beynəlxalq incəsənət festival-müsabiqəsinin qalibi olub.

Məmmədin dediklərindən: "Musiqiyə uşaqlıqdan böyük həvəsim olub, xalq musiqilərini heyranlıqla dinləmişəm. Atam nağara ifaçısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Mustafa Məmmədovun bu sənətə gəlməyimdə çox böyük rolu olub. Əvvəllər tar ifaçılarına həsədlə tamaşa edir, bu sənəti öyrənməyə can atırdım. Elə bu düşüncə ilə də 2009-cu ildən Naxçıvan şəhərindəki 3 nömrəli Uşaq Musiqi Məktəbində tar sinfində təhsil almağa başladım. Fətəli Axundzadə mənim ilk müəllimim olub. Burada təhsil aldığım illərdə keçirilən müsabiqə və konsertlərdə çıxışlarım maraqla qarşılanıb. Ötən dövr ərzində bir çox diplom, fəxri fərman və qiymətli hədiyyələr qazanmışam. Bütün bu uğurlarım üçün başlıca stimul muxtar respublikamızda gəncliyə həssas münasibət və hərtərəfli qayğı, kollecdə gənc musiqiçi kadrların yetişməsi üçün yaradılan şəraitdir. Gələcəkdə öz sənətim və bütün əzmimlə diyarımızda incəsənətin inkişafına töhfə verməyə çalışacağam".

***Türkan Cəfərli*** də muxtar respublikanın mədəni həyatında fərqlənən gənclərdəndir. Kağızdan maraqlı əl işləri düzəldən, Kəngərli rayonundan olan Türkan artıq 3 ildir ki, bu işlə məşğul olduğunu söyləyir.



Naxçıvan Müəllimlər İnstitutunda təhsil aldığı illərdən bu sahəyə marağı olub. İlk vaxtlarda çox yaxşı alınmasa da, günügündən öz üzərində çalışmaqla gözəl əl işləri düzəldə bilib. Kağızdan hazırladığı fiqurları uşaq bağçalarına bağışlayır. 2016-cı ildən başlayaraq muxtar respublikamızda müxtəlif sərgi-müsabiqələrdə iştirak edir. Müsahibim deyir ki, Naxçıvanda ilk dəfə keçiriləcək "Yaradıcı gənclər" festivalına xüsusi həvəslə hazırlaşır.

***Cəlil Xudiyev*** çəkdiyi rəsmlərlə çoxlarının maraq və rəğbətini qazanan istedadlı fırça sahibidir. Ötən illər ərzində bir sıra uğurlara imza atan yaradıcı gəncimizin 2016-cı ildə Babək Rayon Mədəniyyət Sarayında istedadlı uşaqların rəsmlərindən ibarət sərgidə iştirakı



həyatının ilk ən yaddaqalan hadisəsi olub. 2017-ci il may ayının 28-də isə tələbəsi olduğu "Naxçıvan" Universitetində ilk fərdi sərgisi təşkil edilib. Gənc rəssamın həmin sərgidə yer alan "Haçadağ", "Üzən ada", "Batabat" və Naxçıvan təbiətini əks etdirən digər tabloları tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. O, keçirilən tədbirlərdə, müsabiqələrdə qazandığı uğurların nəticəsi olaraq 2018-ci ilin yekunlarına görə "İlin gənc rəssamı" nominasiyasının qalibi olub. Cəlil Xudiyev 2019-cu ilə də uğurla başlayıb, uşaqlar-gənclər arasında keçirilən "Naxçıvan – 95" adlı rəsm müsabiqəsindəki fəallığına görə, muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən "İncəsənət döyüşü" müsabiqəsində isə II yer tutduğu üçün diplomlarla təltif olunub. Gənc rəssamla söhbətim təhsil aldığı "Naxçıvan" Universitetində baş tutdu. Ali təhsil ocağında keçirilən fərdi sərgisində nümayiş etdirilən rəsmlərlə tanışlığı zamanı yaratdığı tablolarda özünəməxsus düşüncələrini təsvir etməsini elə ilk baxışdan sezə bildim.

Cəlil Xudiyev ötən illər ərzində qazandığı uğurlardan, rəssamlıq sənətinin incəliklərindən söhbət açdı. Dedi ki, müasir dövr tamaşaçısında maraq yaratmaq asan deyil, hər kəs baxdığı rəsmdə ideya, fikir axtarır, özünü həmin rəsmdə tapmaq istəyir. Bu mənada, mən də çəkdiyim rəsmlərdə öz düşüncələrimi, müşahidələrimi, həyatda yaşananları əks etdirməyə çalışıram. Rənglər məni darıxmağa qoymur, ruhumu oxşayır, daha yaxşı rəsmlər yaratmağa sövq edir. Əsasən, natürmort üslubunda rəsmlər çəkən fırça sahibinin ən çox sevdiyi fəsil yazdır. Elə uğurlu rəsm əsərlərinin də əksəriyyəti onun ilham mənbəyi olan yaz fəslinin ecazkar gözəllikləri ilə bağlıdır. Ən çox sevdiyi rənglər isə yaşıl və qırmızıdır. Cəlil iki il bundan öncə muxtar diyarımızda bir ilkə imza ataraq face art və qrim ustası kimi də fəaliyyət göstərməyə başlayıb. Naxçıvanda ilk dəfə keçiriləcək "Yaradıcı gənclər" festivalında da bu bacarığını nümayiş etdirməyə çalışacaq. Festivalda onun yaradıcılıq dünyasının məhsulu sayılan rəsm əsərləri də yer alacaq. Cəlil Xudiyev söhbət zamanı dedi: "Dövlətimiz gənclərə, onların yaradıcı potensialının üzə çıxarılmasına böyük imkanlar yaradır, tez-tez keçirilən müsabiqələr, festivallar bu bacarıqların inkişafı üçün geniş meydan açır. Gənclərə isə yalnız öz üzərində çalışıb, daha çox uğur qazanmaq qalır".

"Yaradıcı gənclər" festivalında iştirak etmək üçün artıq qeydiyyatdan keçdiyini və bu yaradıcılıq bayramının onun uğurlarını daha da artıracağına inandığını bildirən Cəlil Xudiyev gənclərə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq etdi.

***Səma İbrahimli*** həmin festivalda əl işləri sərgilənəcək sağlamlıq imkanları məhdud, lakin istedadlı gənclərdən biridir. O, Culfa Şəhər Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Bacarıqlı əllər" dərnəyinin üzvüdür. Səma ilə həmsöhbət olduğumuzda



öyrənirik ki, o, məişət tullantıları, daş, ip, şüşə və digər materiallardan istifadə edərək müxtəlif əl işləri, ornamentli və ya süjetli dekorativ kompozisiyalar hazırlayır. Dərnəkdə öyrəndikləri onun bilik, bacarıq və vərdişlərini daha da möhkəmləndirir, özünün nəyə qadir olduğunu nümayiş etdirə bilir.

Səmanın uğurları çoxdur. O, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar keçirilən "Naxçıvanım mənim" mövzusunda əl işi müsabiqəsində iştirakına, 2015-ci ildə sağlamlıq imkanları məhdud uşaqlar arasında "İntibahın şəfəqləri̇lə böyüyürük biz" mövzusunda keçirilən əl işi müsabiqəsində I yeri tutduğuna, 2016-cı ildə 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilən "İstedadlı uşaqlar" festivalında iştirakına, 2017-ci ildə "İstedadlı gənc qadın" nominasiyası üzrə 2017-2018-ci tədris ilində incəsənət sahəsində qazandığı nailiyyətlərə görə diplom və fəxri fərmanlarla təltif edilib.

Dərnək müəllimi Aidə İbrahimova vurğulayır ki, Səma 4 ildir, mərkəzə gəlir, çox ağıllı, qabiliyyətli qızdır. O, taleyinin ağır sınaqlarına baxmayaraq, həyatdan küsməyib, əksinə, ona daha da sıx sarılaraq gecə-gündüz öyrənmək, çalışmaq eşqi ilə yaşayır. Onun əl işlərində ixtiraçılıq ruhu özünü göstərir, bu əl işləri rəngarəngliyi, maraqlı tərəfləri ilə göz oxşayır. Səma muxtar respublikada fiziki imkanları məhdud şəxslərə bağlı keçirilən yaradıcılıq tədbirlərində yaxından iştirak edir. Aidə müəllimə onu da qeyd edir ki, keçiriləcək festival fiziki imkanları məhdud istedadlı gənclər üçün də çox böyük stimuldur. Belə gəncləri cəmiyyətimiz daha yaxından tanımalıdır, onlara daha çox dəstək olmalıyıq. Mən inanıram ki, dövlətimizin qayğısı sayəsində bu kateqoriyadan olan gənclərimiz də ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edə biləcəklər.

***Nərmin Məmmədova*** Sədərək rayonunun Heydərabad qəsəbəsindəndir. Sadə bir kağız ilə möcüzələr yaradan Nərmin xanım deyir ki, hələ məktəbli ikən parçadan, kağızdan müxtəlif əl işləri düzəltməyə başlamışam. Əvvəllər bu işə həvəskar kimi yanaşsam da, zamanla gördüyüm iş mənim əsl sənət sahəmə çevrilib. İndi də bu sənəti çalışdığım



bağçada davam etdirirəm. Nərmin Məmmədovanın əl işlərinə baxanda adi kağızdan belə gözəlliklərin yaradılmasına insan valeh olur. Bir anlıq düşünürsən ki, insan əlləri, fantaziyası nələrə qadirdir. Onun əl işləri muxtar respublikada mütəmadi keçirilən yaradıcılıq tədbirlərində sərgilənir. Qeyd edək ki, Nərmin Məmmədova da öz əl işləri ilə qədim diyarımızda keçiriləcək festivalda iştirak edəcək.

*Biz də inanırıq ki, muxtar respublikamızın şəhər və rayonlarından olan yaradıcı gənclərin iştirak edəcəyi ilk "Yaradıcı gənclər" festivalı da qədim diyarımızın özünəməxsus festival ənənəsini gənclik şövqü və həyatsevərliyi, rəngarəngliyi ilə zənginləşdirəcək, istedadlı gənclərimizin gələcək sənət uğurları üçün yeni üfüqlər açacaq.*

✍ **Ramiyyə ƏKBƏROVA**
✍ **Nail ƏSGƏROV**
✍ **Güntac ŞAHMƏMMƏDLİ**
✍ **Pərviz HACILI**

## İcbari sığortalar sahəsində vəzifələr müzakirə olunub



*Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı zamanı mülki məsuliyyətin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib.*

Tədbirdə agentliyin Baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, muxtar respublikamız "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən sahibkarlara məxsus daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasının həyata keçirilməsinə nəzarət Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinə həvalə olunub.

Bildirilib ki, diyarımızda ötən bir il müddətində, 1 aprel 2019-cu il tarixə sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası üzrə 1001, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 573 müqavilə bağlanılıb.

Baş direktor diqqətə çatdırıb ki, görülən işlərlə yanaşı, sığorta müqavilələri bağlamaqdan yayınma halları da vardır. Bunlara yol verilməməsi üçün hər iki dövlət qurumu bu işə diqqəti daha da artırmalı, sahibkarlar arasında izahat və maarifləndirmə işləri genişləndirilməlidir.

Tədbirdə fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov, nazirliyin bölmə rəisi, daxili xidmət mayoru Mirtaleh Seyidov, şəhər, rayon Dövlət Sığorta agentliklərinin direktorları və rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin rəisləri çıxış ediblər.

✍ **Əli CABBAROV**

## Seminar-treninq keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə bağlı "Naxçıvan" Universitetində növbəti seminar-treninq keçirilib. "Huawei" şirkətinin peşəkar mütəxəssisləri tərəfindən universitetdə yaradılan İKT mərkəzində "Telekommunikasiya sahəsinə dair təlim" mövzusunda keçirilən seminarda Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları, Naxçıvan Dövlət Universitetinin, "Naxçıvan" Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin bir qrup müəllim və tələbələri iştirak ediblər.

"Huawei" şirkətinin əməkdaşı Ülvi Əkbərov mobil rabitə sisteminin yaranması və 2G, 3G və 4G LTE texnologiyalarının strukturu və iş prinsipi haqqında iştirakçılara mühazirə oxuyub.

Sonda tələbələrin sualları ətraflı cavablandırılıb.

**Seyfur HACIMURADOV**

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 290